AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

6 yanvar 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 1 (3564)



# "ŞUŞA İLİ" QARABAĞA QAYIDIŞ İLİDİR

Prezident İlham Əliyevin 2022-ci ili "Şuşa ili" elan etməsi bütün dünya azərbaycanlılarının sevincinə səbəb oldu. Çünki Qarabağın bu tacı qalasının xalqımızın qan yaddaşında, milli, mənəvi və mədəni düşüncəsində fərqli yeri, hətta müqəddəslik anlamı var. Bu qədim-qaim yurdumuzla bağlı baş verən hər bir hadisə hamımızın milli ruhuna, milli heysiyyatına təsir edə bilir.

Elə buna görə də dövlət başçısı 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bu tarixi xəbəri verərkən həm ölkəmizdə, həm də hüdudlarımızdan uzaqlarda hər bir azərbaycanlının bayram ovqatı bir daha milli həmrəylik duyğusu ilə möhürləndi.

Prezidentin "Şuşa ili" qərarı, heç şübhəsiz ki, müdrikliyin, uzaqgörənliyin nəticəsi kimi siyasi, tarixi və hüquqi əhəmiyyətə də malikdir. Politoloqlar bu əhəmiyyəti onunla izah edirlər ki, belə bir qərar Azərbaycanın tarixən mədəniyyət paytaxtı olan Şuşanın beynəlxalq aləmdə tanıdılması, həqiqətlərin dünyaya təqdimatı baxımından çox önəmlidir. Uzun müddət xalqımıza qarşı qurulmuş məkrli planlar fonunda Qarabağın, Şuşanın Azərbaycan torpağı kimi dünyada tanıdılmasında çətinlik yarandı. İşğaldan sonra da həmin qüvvələr Qarabağın, eləcə də Şuşanın erməni torpağı olması haqda dünyada təbliğat aparırdı.

Dövlət başçısının 2022-ci ili "Şuşa ili" elan etməsini məhz bu səbədən zəruri ehtiyac və sosial sifariş kimi qəbul etmək olar. Artıq təkcə hərbi-siyasi yolla deyil, həm də mədəniyyət diplomatiyası ilə Şuşanın tarixən Azərbaycanın ayrılmaz parçası olduğunu hər kəs görəcək. Keçiriləcək tədbirlərlə 270 il öncə inşa edilən Şuşa qalası və şəhəri mədəniyyəti, tarixi, yerləşdiyi coğrafiyası, bəşər mədəniyyətinə verdiyi töhfəsi ilə dünyada tanınacaq.

Tədbirlərin hər birində Şuşanın yaranması, onun paytaxt və əsas şəhər olaraq Qarabağın və bütövlükdə Azərbaycanın iqtisadi, mədəni həyatında oynadığı rol, işğal dövründə məruz qaldığı dağıntı və vandallıq, Azərbaycan Ordusunun şəhəri işğaldan azad edərkən göstərdiyi misilsiz qəhrəmanlıq və digər vacib məsələlər haqqında ətraflı məlumat veriləcək, bu barədə yeni-yeni kitablar və nəşrlər çap olunacaq, filmlər çəkiləcək. Bununla da erməni yalanı və revanşistlər bir daha ifşa ediləcək.



Bundan başqa, "Şuşa ili" Qarabağdakı quruculuğu və Qarabağa qayıdışı da sürətləndirəcək. Əslində, Prezident İlham Əliyev təbrikində bunu açıq bəyan etdi: "Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasının sürətləndirmək məqsədilə mən yeni ili "Şuşa ili" elan edirəm".

Bu, o deməkdir ki, il ərzində əsas diqqət və resurslar ölkəmizin mədəniyyət paytaxtı olan Şuşanın bərpasına və yenidən qurulmasına yönəldiləcək. Bu da imkan verəcək ki, Şuşa və ətraf ərazilərə əhalinin qayıtması üçün bütün lazımi imkanlar yaradılsın və orada normal həyat bərpa edilsin. Belə olan təqdirdə 2022-ci ili Qarabağa qayıdışın önəmli mərhələsinin başlanğıc ili kimi qəbul edə bilərik.

Şuşanın qısa müddətdə bərpası, Qarabağın təhlükəsizliyinin gücləndirilməsi, sülhün davamlı olması baxımından önəm daşıyır. Şuşada həyat öz axarına düşəndən sonra ətraf ərazilərin də Azərbaycanın sosial, iqtisadi və hüquqi məkanına reinteqrasiyasını stimullaşacaq. Bir sözlə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2022-ci ili "Şuşa ili" elan etməsi Vətən müharibəsində əldə etdiyimiz tarixi qələbəni iqtisadi, siyasi və diplomatiya müstəvisində daha da möhkəmləndirməklə, sülh quruculuğu prossesində önəmli məsafə qət etmək, strateji hədəflərə çatmaq üçün əhəmiyyətli oldu.

## BİRİNCİ VİTSE-PREZİDENT AUTİZM MƏRKƏZİNDƏ OLUB



Bakının Nizami rayonunda Heydər Əliyev Fondu tərəfindən yeni inşa edilən Autizm Mərkəzi istifadəyə verilib.

Birinci vitse-prezident Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Mərkəzin açılışında iştirak ediblər.

Autizm spektr pozuntulu uşaqlar üçün Bərpa Mərkəzi 2013-cü ildən fəaliyyət göstərir. Lakin indiyədək Mərkəzin özünün daimi yerləşdiyi binası olmayıb. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində istifadəyə verilən Mərkəzin binası autizm spektr pozuntulu uşaqlar üçün əsl hədiyyə olub.

Bu autizm xəstəliyindən əziyyət çəkən uşaqların intensiv terapiya alması və onların asudə vaxtlarının səmərəli təşkili üçün Mərkəzdə lazımi şərait yaradılıb. Binada sinif, sakitləşdirici, valideyn və uşaqlar üçün psixoloq, yataq və loqoped otaqları, akt və idman zalları var.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların təlim-tərbiyəsi, təhsili, asudə vaxtlarının səmərəli təşkili hər zaman Heydər Əliyev Fondunun prioritet istiqamətlərindən olub. Bu gün istifadəyə verilən Mərkəz də bunun gözəl nümunələrindəndir.

Mərkəz autizm spektr pozuntuları ilə üzləşmiş şəxslərə zəruri ünsiyyət və həyat bacarıqlarını öyrətmək, onları müstəqil həyata hazırlamaq üçün ailələr ilə işləmək, autizm sahəsində maarifləndirici layihələr həyata keçirmək istiqamətində fəaliyyət göstərir. Mərkəzdə 23 yaşınadək şəxslərin qayğısı ilə müvafiq təlim keçən mütəxəssislər məşğul olurlar. Mərkəzin ərazisində velosiped yolu salınıb, oturacaqlar quraşdırılıb, idman və oyun meydançaları yaradılıb.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva xüsusi qayğıya ehtiyacı olan uşaqlara mütəmadi surətdə baş çəkir, onların yüksək səviyyədə təhsil almalarını, eləcə də gündəlik qayğılarının həllini daim diqqətdə saxlayırlar. Fondun bu sahədəki fəaliyyəti xüsusi qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsi, onların həyat şəraitinin yaxşılaşdırılması, təhsil problemlərinin həlli məqsədi daşıyır.

Birinci vitse-prezident Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva bina ilə tanışlıqdan sonra autizm spektr pozuntulu uşaqlarla görüşüblər.

Uşaqlar müxtəlif mahnılar ifa ediblər, birgə fotolar çəkdirilib.

## *Rəsmi xronika*

***Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 29-da İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.***

***Dövlətimizin başçısı dekabrın 29-da Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə "Müharibə veteranı" adının verilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

***Dekabrın 29- da Azərbaycan Prezidenti İlham Əliyev Aztəminatlı ailələrə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.***

## ÖTƏN İL NƏ İLƏ YADDA QALDI?

Ötən il bir sıra hadisələrlə yadda qaldı. Oxucularımızın yaddaşını təzələmək üçün bu hadisələrin ən önəmlilərini seçmişik.

**11 yanvar** – Rusiya paytaxtında prezident Vladimir Putinin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında 4 saat davam edən görüş baş tutdu. Bu, müharibədən sonra Azərbaycan və Ermənistan rəhbərlərinin ilk görüşü kimi tarixə düşdü.

**21 yanvar** – Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında görüş keçirildi. Sonda Azərbaycanla Türkmənistan arasında mühüm tarixi sənəd imzalandı.

**30 yanvar** – Ağdam rayonunda Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başladı.

**12 may** – Azərbaycanın mədəniyyət paytaxtı Şuşada "Xarı bülbül" musiqi festivalının açılışı oldu.

**15 iyun** – Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşaya səfər etdi. Daha sonra Türkiyənin dövlət başçısı və Azərbaycan Prezidenti İlham Əliyev Şuşa şəhərində Azərbaycan-Türkiyə arasında müttəfiqlik haqqında "Şuşa bəyannaməsi" imzaladılar.

**26 oktyabr** – Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak etdilər.

**15 dekabr** – Azərbaycan və Ermənistan rəhbərləri Brüsseldə bir araya gəldi. Avropa İttifaqının rəhbəri Şarl Mişelin təşəbbüsü ilə baş tutan görüşdə Zəngəzur dəhlizindən keçən dəmir yolu ilə bağlı tərəflər razılığa gəldi.

# ŞƏHİD AİLƏLƏRİ ZİYARƏT OLUNUB

## Tarixi ədaləti və torpaqlarımızın bütövlüyünü bərpa edənlərin doğmaları bizə əmanətdir

**Tarixə 44 günlük savaş kimi düşən Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan soydaşlarımızın ailələrini mütəmadi ziyarət edən asayiş keşikçiləri Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində də ənənələrinə sadiq qalıb, paytaxtda və yerlərdə şəhid ailələrinə baş çəkiblər.**

Göygöl rayonunda qaziləri, şəhid, eləcə də aztəminatlı ailələri ziyarət edən RPŞ əməkdaşları hər iki əlamətdar gün münasibətilə xoş arzularını çatdırıb, bayram sovqatlarını təqdim ediblər.

Bildirilib ki, müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların hər cür qayğı ilə əhatə olunması Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindəndir.





**Qax Rayon Polis Şöbəsinin** əməkdaşları da torpaqlarımızın azaldığı uğrunda canından keçən şəhidlərimizin ailələrini və aztəminatlı soydaşlarımızı ziyarət edib qayğıları ilə maraqlanıblar.

Ziyarət zamanı şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın igidlik və şücaətindən danışılıb, onların fədakarlıqlarının qəlblərdə əbədi yaşayacağı qeyd olunub. Şəhidlərimizin övladlarını təbrik edən asayiş keşikçiləri onlara ataları kimi qəhrəmanlıqlara imza atmalarını, yaxşı oxumalarını arzulayıblar. Ümumilikdə RPŞ əməkdaşları tərəfindən 60 ailə ziyarət olunub.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində **Xocalı Rayon Polis Şöbəsinin** əməkdaşları qazi, şəhid, eləcə də aztəminatlı ailələrlə görüşüblər. Görüşdə şəhidlərin əziz xatirəsinin xalqımız tərəfindən daim əziz tutulduğu, onların ailələrinin dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğu vurğulanıb.






**Zaqatala RPŞ-nin** əməkdaşları da bu nəcib təşəbbüsə qoşulublar.

**Astara Rayon Polis Şöbəsinin** əməkdaşları isə şəhid hərbi qulluqçu Orxan Babayevin ailəsinə baş çəkərək hər iki əlamətdar gün münasibətilə onları təbrik edib, maddi və mənəvi dəstək göstəriblər.

Şəhidlərimizin ailə üzvləri onlara göstərilən diqqətə və qayğıya görə ölkə, eləcə də DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

**Qeyd edək ki, anoloji görüşlər Oğuz, Biləsuvar, Ağcabədi, Masallı, Xızı və Ağstafa rayonlarında da keçirilib.**

# VƏTƏNİN, VƏTƏNDAŞIN KEŞİYİNDƏ

## Bayram günlərində də polislərin xidməti otaqlarında işıqlar sönmədi...

**Nəhayət, Qarabağın adı builki diləklərimizdə intizarın, iztirabın, həsrətin, işğalın və bir az da, üfüqdə güclə sezilən ümidin rəmzi kimi zikr edilmədi. Artıq ikinci Yeni il idi ki, "o gün olsun bayramı Şuşada keçirək" arzusu yel qanadlarını çırpıb havalanmadı, uçub əsarətdəki dumanlı dağlarda gözdən itəsi olmadı. Çünki 30 il xəyallarımızın pərvazlandığı o yurd-yuvamızın gerçək sahibləri artıq geri dönüb, indi oralarda biz varıq; ordusu ilə, polisilə Azərbaycan dövləti var!**

Hər bir şuşalı, cəbrayıllı, kəlbəcərli, laçınlı... da öz ev-eşiyinə dönəcək, uşaqlıq, gənclik xatirələrinin səpələndiyi o dağlara, yaylaqlara qovuşacaqlar, əlbəttə. Bax, bunun üçün Azərbaycan polisi ötən bayram günləri də, infrastrukturu tam xidməti şərait üçün münasib olmayan, hələ yenicə daşı-daş üstə qoyulan postlarda, polis şöbələrində xidmətini davam etdirdi, soyuq dağ havasını ana Vətənin isti hənirtisi kimi ciyərinə çəkdi. O polis postlarındakı əməkdaşlarımız bu gün dövlətin suveren hüquqlarını, qanunlarımızı təmsil etməklə, həm də Qarabağın əmin-aman, təhlükəsiz gələcəyini inşa edir, dünyanın gözü qarşısında yerlə yeksan edilən hüququ, ədaləti addım-addım bərqərar edirlər.

Bayram axşamı istər Qarabağdakı postlarda, istərsə də ölkənin digər bölgələrindəki idarə və şöbələrdə xidməti otaqlarda sönməyən işıqlar, bir növ, polisin çətin xidmətinə işıq saldı. Bayramı ailələri, doğmaları, əzizləri ilə keçirən vətəndaşların evdəki məsud anlarının keşiyini bayırda polis çəkir, onları gecənin şərindən qoruyurdu. Süfrə başına yığışıb sevincini, arzularını bölüşən ailələri, əslində, böyük tablonun – sabitliyin kiçik fraqmentləri kimi də təsəvvür edə bilərik. İctimai asayişi, sabitliyi qoruyan polis öz xidməti ilə evlərdəki bayram axşamını şəkilləndirdi, onların sabaha, gələcəyə yelkən açan arzularına qol-qanad verdi.

Bəlkə bu ifadələr çox obrazlı səslənir, ancaq rəqəmlər də eyni şeyi deyir. Yeni ilin ilk günündə daxili işlər orqanları tərəfindən 27 cinayətin üstünün "isti izlər"lə açılması, cinayət törətməkdə şübhəli bilinən 27 nəfərin saxlanılması bayramlarda belə polisin xidməti otaqlarında sönməyən işıqların səbəbini, amalını izah edir, nəticəsini ortaya qoyur. Eləcə də axtarışda olduğuna görə 17 nəfərin saxlanılaraq aidiyyəti üzrə təhvil verilməsi, həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 8, qanunsuz saxlanılan silah-sursatla bağlı 4 faktın müəyyən edilməsi ayıq-sayıq, gecəli-gündüzlü gərgin əməyin rəqəmlərlə ifadə olunan təzahürüdür.



Bayram günləri Bakının küçələrində xeyli qələbəlik oldu. Paytaxt sakinlərinin bayramı həmişəki kimi xoş ab-havada qeyd etmələri üçün ictimai asayişin qorunması və yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi də polisin çiyinlərindəydi. Bugünlərdə ciddi insidentin yaşanmaması sabitliyin etibarlı qorunduğunu növbəti dəfə təsdiq etdi.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Özü, sözü Vətən olanlar

## Döyüş yolu kitaba və tarixə sığmayanları unutmayaq

Vətən müharibəsində qazandığımız zəfərdə onun da imzası var. Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçusu, istefada olan baş çavuş, qazi Əliyev Gəncəvi Zahid oğlu 1991-ci il oktyabrın 23-də Xanlar rayonunun Mirzik kəndində (hazırda Göygöl rayonunun Şəhriyar kəndi) doğulub. Valideynləri Zahid Əliyev və Navvat Əliyeva Qırğızıstanda doğulublar, bunun səbəbi 1938-ci ildə ailələrinin sovet dövlətinin o vaxtkı repressiya siyasəti nəticəsində Gürcüstandakı doğma yurdlarından sürgün edilməsidir. 1990-cı ilin aprelində Azərbaycana gəlib hazırkı Şəhriyar kəndində məskunlaşıblar. Gəncəvi çoxuşaqlı, zəhmətkeş və ən əsası da mənəvi dəyərlərimizə bağlı olan ailədə böyüyüb. Onun bir qardaşı və üç bacısı var.

Gəncəvi Göygöl rayonunun Şəhriyar kəndindəki şəhid Lətif Məhərrəmov adına tam orta məktəbdə təhsil alıb. O, 2010-cu ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hərbi Dəniz Qüvvələrinin "N" saylı hərbi hissələrində matros olaraq hərbi xidmət keçib. 2011-ci ilin iyul ayında hərbi xidmətdən tərxis olunub.

2012-ci ilin may ayında Gəncəvi Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Qısa müddətdə Zaqatalada yerləşən "N" saylı hərbi hissə komandirinin sərəncamında olub. Həmin ilin iyul ayında isə Daxili Qoşunların Sumqayıtdakı "N" saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin xüsusi kəşfiyyat qrupunda kəşfiyyatçı vəzifəsinə təyin edilib. Sonrakı illərdə burada xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun yarımqrupunda heyət nəfəri və snayper vəzifələrində xidmət edib.

Zoğalı beret daşıma uğrunda xüsusi təyinatlıların yarışında müvəffəqiyyət qazanıb. Xidmət etdiyi bölmənin tərkibində o, Quba rayonu, eləcə də Nardaran qəsəbəsinin ərazilərində ictimai qaydanın və təhlükəsizliyin mühafizəsi üzrə xidmətə cəlb olunub. Həmçinin, Birinci Avropa Oyunları və İslam Həmrəyliyi Oyunları zamanı təhlükəsizliyin təmin olunması ilə bağlı tapşırıqları yerinə yetirib.

Vətən müharibəsi ərəfəsində ayrı-ayrı qoşun növlərinin xüsusi təyinatlı bölmələrinin təlim toplanışında iştirak edərək öz taktiki hazırlığını təkmilləşdirib.

2020-ci ilin sentyabr ayının 27-də erməni işğalçılarına qarşı Vətən müharibəsi başlayanda ön cəbhəyə göndərilib. Onun



döyüş yolu Cəbrayıl rayonundan Şuşayadək davam edib. Cəbrayıl, Füzuli, Xocavənd rayonlarında bəzi yaşayış məntəqələrinin, habelə yüksəkliklərin, o cümlədən, Laçın dəhlizi və Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə snayper silahı ilə düşmənin ayrı-ayrı mövqelərdəki canlı qüvvəsini ciddi itkiyə məruz qoyub. Döyüşçümüz erməni snayperlərinin bir sıra atəş nöqtələrini susdurmaq, işğalçıların hərbi qulluqçularımıza qurduqları pusqulardan çıxmaq üçün komandirlərin vəziyyətə uyğun verdikləri göstərişləri peşəkarlıq və cəsurluqla yerinə yetirib.

Deyir ki, müharibə zamanı



Daxili Qoşunların xüsusi təyinatlıları Müdafiə Nazirliyinin və digər hərbi qurumların aidiyyəti hərbi hissələrinin xüsusi təyinatlılarının da daxil olduqları bölmələrin tərkibində döyüşüblər. Həmin bölmələrin komandirlərinin müavinləri, habelə ayrı-ayrı qrupların komandirləri qismində Daxili Qoşunların xüsusi təyinatlı olan zabitləri öz cəsarətləri ilə şəxsi nümunə göstəriblər. O, Vətən müharibəsinin həlledici məqamının Şuşa uğrunda döyüşlər olduğunu vurğuladı. Bu istiqamətdə bir neçə gün şiddətli döyüşlər gedib. 2020-ci il noyabrın 6-da Gəncəvi Şuşada qala divarlarının yaxınlığında snayper gülləsindən sol qol və tank mərmisinin partlayışından sinə, qarın nahiyələrindən ağır yaralanıb.

Hərbi xidmətə sağlamlığı ilə bağlı yararsız olduğundan Daxili Qoşunların sıralarından istefaya buraxılıb.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 29.12.2020-ci il tarixli müvafiq sərəncamla, həmçinin, müdafiə nazirinin 28.12.2020-ci il tarixli, daxili işlər nazirinin 26.06.2021-ci il tarixli əmrlərinə əsasən, baş çavuş G.Əliyev "Şuşanın azad olunmasına görə", III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" və III dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilib.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# SÜKAN ARXASINDA DİQQƏTLİ OLAQ

Statistika göstərir ki, ağır qəzaların 25 faizinin səbəbkarı sükan arxasında diqqəti yayınmış sürücülərdir.

Sükan arxasında yemək, mobil telefondan istifadə, yüksək səslə musiqi dinləmək qəza hallarının artmasına şərait yaradır.

Nəqliyyat vasitəsini yüksək sürətlə idarə etmək də ölümlə nəticələnən qəza hallarının artmasına səbəb olur. Məsələn orta sürətin hər 1 kilometr saat artması ölümcül xəsarətləri 4 faiz, ciddi xəsarətləri isə 3 faiz artırır. Qəzaların əsas səbəblərindən biri kimi avtomobil idarə edərkən təhlükəsizlik kəmərindən istifadə edilməməsi, sürət həddinin aşılması, sərxoşluq və həmçinin yol hərəkəti qaydalarına əməl edilməməsi göstərilir.

Dünyanın bəzi ölkələrində yollarda müəyyən instalyasiyalara rast gəlmək olar. Mütəxəssislər hesab edir ki, həmin instalyasiya sürücülərə qəzaların qarşısını almaq üçün yol hərəkəti qaydalarına riayət etməyin nə qədər vacib olduğunu xatırladır.

Ümid edirik ki, 2022-ci ildə sürücülərimiz öz həyatlarını və digər hərəkət iştirakçılarının sağlamlığını düşünüb, qanunlara maksimum dəcədə əməl edəcəklər. Çünki yol səhvi bağışlamır.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# DÜNYANI UŞAQLARA VERƏK

**Qubadlı Rayon Polis Şöbəsinin əməkdaşları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə uşaq evini ziyarət ediblər.**



Fidanların əyləncəli oyunlarını, söylədikləri şeirləri, oxuduqları nəğmələri rəğbətlə qarşılayan və bayram sevincinə şərik olan həmkarlarımız onları hədiyyələrlə sevindirib, xoş arzularını çatdırıblar.

Uşaqlar bu gözəl günlərdə dəyərli vaxtlarını ayırıb onları unutmayan polis əməkdaşlarına bir valideyn sevgisi və şəfqəti ilə atdıqları bu nəcib addıma, eləcə də göstərilən diqqət və qayğıya görə təşəkkülərini bildiriblər.

# Həmkarımızın uğuru

**Ölkəmizi idmanda əldə etdiyi uğurlarla dünyada tanıdan həmkarlarımızdan biri də 1-ci kateqoriya üzrə ən gənc güləş hakimi, Şirvan Şəhər Polis Şöbəsinin Cinayət Axtarışı Bölməsinin əməliyyat müvəkkili, polis leytenantı Tural Əliyevdir.**





O, pəhləvan güləşi üzrə üçqat Avropa çempionu, üçqat dünya kubokunun sahibi, kəmər güləşi üzrə ikiqat dünya çempionudur. Litvanın Şaulay şəhərində 2011-ci ildə keçirilən Avropa çempionatında T.Əliyevin işlətdiyi fənd çempionatın ən yaxşı fəndi kimi dəyərləndirilib.

Bugünlərdə o, daha bir uğura imza atıb. Belə ki, dünya arenalarında hər zaman ədalətli qərarları, eyni zamanda peşəkarlığı ilə fərqlənən polis idmançı Bolqarıstanın Samokov şəhərində keçirilən yeniyetmələrin Avropa birinciliyində beynəlxalq dərəcəli 1-ci kateqoriyali hakimlik statusu almaq üçün sınaq imtahanında iştirak edib. Yüksək peşəkarlığı və təcrübəsi sayəsində imtahanların ilin yekununa olan nəticəsinə görə 1-ci dərəcəli beynəlxalq hakim statusuna layiq görülüb.

"Polis" də paqondaşımızı təbrik edir, yeni ildə daha böyük uğurlara imza atmasını arzulayır.

Yeri gəlmişkən, "Əməkdar məşqçi"nin yetirmələri Türkan Nəsirova və Sənan Mustafayev də bir çox beynəlxalq yarışların qalibləridir.

*Nizam Həmidov,*
*polis baş leytenantı*

# Bayram ovqatlı məktublardan...

Peşəmiz böyük məsuliyyət tələb edir. Dövlətə, dövlətçiliyə xidmətlə, asayişi qorumaqla, təhlükəsizliyi təmin etməklə yanaşı,vətəndaşın hüquqlarını qorumaq öhdəliyinin məsuliyyətini də hiss edirik. Güvənc yeri olmaq, etibarı qazanmaq, etimadı doğrultmaq da məhz bu səbəbdəndir.

DİN-ə ünvanlanan məktubların ilk cümləsindən sonunadək polisə minnətdarlıq hissi ilə yazılması sadaladıqlarımızın təzahürüdür.



"Cənab Prezidentin ali-siyasi, iqtisadi, hərbi, asayiş, mədəni, təhsil, səhiyyə və idman kürsülərində səbrlə, təmkinlə söylədiyi "Qarabağ Azərbaycandır!" nidasıyla Sizləri – Asayişin keşikçilərini salamlamaq mənim üçün şərəfdir.

Düşmənin məkrli planları bizi heç vaxt qorxutmayıb. Bir olub torpaqlarımızı qorumuşuq, zəfər çalmışıq. Ucaltdığımız əbədi Azadlıq Məşəlinin hər şöləsində ruhumuzun, ər, igid, dönməz olduğunu sübut edən "Vətən bölünməz! Şəhidlər ölməz!" sədası hayqırıb, hayqıracaq da. "Dəmir yumruq" əməliyyatıyla başlanan əks-hücum savaşımız məğrur, qəhrəman övladlarımızın qanı, canı, sağlamlığı bahasına Qələbəylə başa çatdı. Vətən sağolsun! Bu savaşda Daxili Qoşunların hərbçiləri də düşmənə qan uddurdu, qəhrəmanlıq, şücaət göstərdi, 66 hərbçisi şəhidlik zirvəsinə ucaldı, yüzlərlə hərbçisi yaralandı. Amma torpaqlarımızın bir qarışının düşmən tapdağı altında qalmasına icazə vermədi. Arxa cəbhədə xidmət aparan polislərimizsə cinayətkarlığa qarşı mübarizə aparmaqla yanaşı vətəndaşlarımızın harayına yetişdi, darda olana köməyini əsirgəmədi, şəhid, qazi ailələrinə mənəvi və maddi yardım göstərdi, dərdlərinə şərik oldu. Asayiş keşikçisi, əmin-amanlıq zəmanəti olan Azərbaycan Polisi - Sizi Zəfər bayramının ildönümü, Qarabağlı Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edir, can sağlığı, işlərinizdə uğurlar diləyirəm. Fəxr edirəm ki, sabitliyi, əmin-amanlığı, qanunun aliliyini qoruyan Polisimiz var. Bu gün sizin sayənizdə rahat gəzir, evimizdə rahat yata bilirik. Mənim Polisim məni qoruyur".

Bu sözlər **Bakı şəhər sakini Arzu Şükürovanın** DİN rəhbərliyinə ünvanladığı məktubundandır.

Digər məktubu isə **İlkin İsmayılov** ünvanlayıb**.** Yazır ki, 14 dekabr 2021-ci il tarixdə yaşadığım mənzilin dəhlizində olan aliminium materialdan düzəldilmiş 2 qapının naməlum şəxs tərəfindən oğurlanmasıyla əlaqədar Binəqədi RPİ-nin 5-ci Polis Bölməsinə müraciət edib. Qısa müddət ərzində operativ tədbirlər keçirən polis oğurluğu törətmiş şəxsi müəyyənləşdirib və ona dəymiş maddi ziyan ödətdirilib.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# SAĞLAM GƏNCLİK VƏ GƏLƏCƏK NAMİNƏ MAARİFLƏNDİRİRİK

## Mübarizə aparırıq ki, gələcəyin əsgərini, həkimlərini, müəllimlərini qoruyaq

**Paytaxt və bölgələrdə polis əməkdaşları gəncləri zərərli vərdişlərdən, xüsusilə narkomaniyadan qorumaq məqsədilə maarifləndirmə tədbirlərini davam etdirirlər.**



Göyçay Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə 5 saylı tam orta məktəbdə "Narkomaniyaya yox deyək!", "Erkən nikah və onun fəsadları" və "Dini radikalizmə qarşı mübarizə" mövzularında maarifləndirici görüş keçirilib. Məktəbin pedaqoji kollektivini və yuxarı sinif şagirdlərini ölkəmizdə narkomaniyaya qarşı aparılan mübarizə barədə məlumatlandıran **RPŞ-nin rəisi, polis polkovniki Müqalib Abdıyev** "ağ ölüm"ün qarşısının alınması üçün birgə fəal mübarizənin vacibliyini vurğulayıb.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndəsi Əzim Rəfiyev dini radikalizmin fəsadlarından danışaraq gənclərə bu kimi məsələlərdə diqqətli olmağı tövsiyə edib.

Tədbirdə həmçinin erkən nikahın qanunazidd olduğu, yeniyetmə vaxtlarında gənclərin, xüsusən qızların ailə qurmasının gələcəkdə onların fiziki və mənəvi sağlamlığına ciddi təhlükə törətdiyi qeyd edilib.

Oğuzun Qumlaq kənd tam orta məktəbində də "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirmə tədbiri keçirilib.

Tədbirdə çıxış edən **RPŞ-nin rəis müavini Qabil Mahmudov** müasir dövrümüzdə çox böyük təhlükəyə çevrilərək dünyanı təhdid edən narkomaniyanın insanlara vurduğu mənəvi və maddi zərərlərdən söz açıb. Narkotik vasitə istifadəçilərinin əhatəsində olan insanlara da ciddi təhlükələr yaratdığını qeyd edən polis polkovnik-leytenantı bu fəlakətlə mübarizə istiqamətində görülən işlər haqqında geniş məlumat verib.

Görüşlərdə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olanları gördükdə və ya hər hansı bir informasiya əldə etdikdə dərhal valideynlərinə, polis əməkdaşlarına məlumat vermələri də tövsiyə olunub.

Tədbirlərdə narkotiklərin törətdiyi fəsadlarla bağlı videoçarxlar nümayiş etdirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.





# Düşməndən geriyə qalanlar

## Minalı sahələr, döyüş sursatları və torpağın əzabı





İşğaldan azad edilmiş ərazilərin mina və digər partlayıcı vasitələrdən təmizlənməsi, erməni hərbi birləşmələrinin geri çəkilərkən atdıqları silah-sursatların yığılması üçün daxili işlər orqanlarının əməkdaşları tərəfindən görülən zəruri tədbirlər uğurla davam etdirilir.

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, 2021-ci il ərzində ərazi polis orqanlarının əməkdaşları tərəfindən tərk edilmiş hərbi mövqelərdən 225 avtomat, 102 qumbaraatan, 68 pulemyot, 64 tank və piyada əleyhinə idarə olunan raket sistemləri, 10 minaatan qurğusu, 8 hava hücumundan müdafiə sistemləri, 721 qumbara, 129 mina, on minlərlə müxtəlif çaplı mərmi və patronlar aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.

Keçirilmiş tədbirlərlə işğaldan azad edilmiş ərazilərdə yabanı halda bitən 17 tona yaxın çətənə bitkisi yandırılaraq məhv edilib.

*Aslan Qiyaslı,*
*polis baş leytenantı*

*Dünyanı cənginə alan "Ağ ölüm"ün (hərçənd ki, ölümün rəngi olmur) qurbanlarının sayı ildən-ilə artır. İnsanlığın məhvinə yönələn və gündən-günə gəncləşən bu təhlükənin qarşısını kəsmək üçün dövlətlər həyəcan təbili çalır. Ölkəmizdə də bütün qurumlar səfərbər olunub. Çünki narkomaniya cinayətkarlığın açarıdır. Bu fikir, əslində, mənim deyil. Bunu bizə polis əmilər deyiblər.*



# UÇURUMA APARAN YOL

## NARKOMANİYA




Ötən ilin noyabrında oxuduğum **Şuşa rayon 6 nömrəli tam orta məktəbdə Çağırışaqədərki hazırlıq rəhbərimiz, ehtiyatda olan baş leytenant Asəf Məhərrəmovun** təşkilatçılığı ilə bu problemlə bağlı yuxarı sinif şagirdlərinin iştirak etdiyi tədbir haqqında fikirlərimi yazmaq da tədbirdə iştirak edən polisin təşəbbüsü idi.

Tədbirimizə başlamazdan öncə şəhidlik zirvəsinə ucalan oğul və qızlarımızın əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdik. Sonra dövlət himnimizi oxuduq. Daha sonra məktəbimizin direktoru Naimə Əliyeva tədbiri açıq elan edib qonaqları təqdim etdi.

**Daxili İşlər Nazirliyinin Mətbuat Xidməti rəisinin müavini, "Polis" qəzetinin redaktoru, polis polkovnik-leytenantı Hafiz Təmirovun** çıxışı səmimiliyi, dolğun fikirləri və poetik ifadələri ilə hər birimizin qəlbinə yol tapdı. O, öz çıxışına belə bir sualla başladı: "Hansı narkomanın adı tarixdə qalıb?" Zal sükut içindəydi və bu suala cavabımız yox idi. Çünki tarixdə narkomanların deyil, qəhrəmanların adı qalır. Daha sonra o, bizə belə bir sual ünvanladı: "Kim Polad Həşimov, Mübariz İbrahimov olmaq istəyir?"...

Təbii ki, Polad Həşimov, Mübariz İbrahimov və mərdlikləri ilə yaddaşlara əbədi həkk olunan digər şəhidlər kimi olmaq istədiyimizi bəyan etdik.

Polis əməkdaşının kitablarla bağlı dediyi fikirlər sanki bizi ovsunlamışdı. "Kitab yeganə vasitədir ki, ona virus düşmür. Kitablardan yan keçən səadətindən yan keçər. Bilik və savada sərhəd, maneə yoxdur. O sizi hər yerdə qoruyar və nüfuz sahibi edər". Sonra o, müəllifi olduğu kitabları məktəbimizin kitabxanasına hədiyyə etdi.

**Daha sonra Şuşa Rayon İcra Hakimiyyətinin Gənclər və İdman İdarəsinin rəisi Nadir Bayramov** zərərli vərdişlərin insan həyatını necə məhv etməsindən danışdı. Narkotik aludəçisindən bəhs edən videoçarxda onun öz nəfsinə məğlub olaraq necə acınacaqlı vəziyyətə düşdüyünün şahidi olduq.

**Şuşa Rayon Polis Şöbəsinin İctimai Təhlükəzlik bölməsinin rəisi, polis kapitanı Səttar Məhərrəmzadə** atası, - şəhid Azərbaycan Polisi Nazim Məhərrəmovun döyüş yolundan danışdı. **RPŞ-nin Qeydiyyat və Şəxsiyyət Vəsiqəsi qrupunun rəhbəri, polis kapitanı Şöhrət Abbasovun** dərslərində yaxşı oxuyanların Şuşanı yaxından görmək şansı var fikri bizə qol-qanad verdi.

**Rayon Uşaq Gənclər İdman Şahmat məktəbinin direktor əvəzi Elnur Məhərrəmov** düşmənimizin nə qədər məkrli olduğunu bizə bir daha xatırlatdı. Dedi ki, biz 29 il yağı tapdağı altında qalmış torpaqlarımızı Ali Baş Komandamızın rəhbərliyi ilə azad etdik. Lakin bununla iş bitmir. Biz torpaqlarımızı işğalçılardan qorumalıyıq. Bunun üçün də gənc nəsil vətənpərvər ruhda böyüdülməli və zərərli vərdişlərdən uzaq durmalıdır.

Çıxışlar bitdikdən sonra polis əməkdaşlarına suallar ünvanladıq. Onlar da cavablandırdılar. Bir daha əmin oldum, daha doğrusu biz əmin olduq ki, Azərbaycan Polisi bizim xoşbəxt gələcəyimiz üçün hər çətinə sinə gərib, canını belə fəda etməkdən çəkinməz.

*Nərminə Məhərrəmzadə,*
*Şuşa rayon 6 nömrəli tam orta məktəbin XI sinif şagirdi*

***Redaksiyadan:** Apardığımız maarifləndirmə də mübarizənin bir formasıdır. Keçirilən tədbirlərdə deyilən fikirlərin, tövsiyələrin nəticəsini görmək üçün belə bir təşəbbüsdə bulunduq. Əslində, məqsədimiz həm də gələcəyin jurnalistlərini, fikir adamlarını, aydınlarını üzə çıxarmaqdır. Müşahidəsini fikirə, fikri isə sözə çevirməyi bacaranları tanımaqla, tanıtmaqla necib bir işə imza atmağımızın fərqindəyik.*

# Həmsöhbətimiz sahə inspektorudur

## Polis sahə məntəqələri sakinlərin güvənc yeridir



Yəqin ki, hər kəsin polislə ilk tanışlığı, hətta uşaqlıqdan məhəllədə tez-tez gördüyü "uçastkoviy"la başlayır. Adətən vətəndaşların hüquq pozuntusuyla bağlı müraciət etdikləri ilk rəsmi şəxslər onlar olsalar da, ərazidəki sakinlərin çoxu bu həmkarlarımızla qeyri-rəsmi - dostluq, səmimi münasibət qurur. Bəlkə elə buna görədir ki, polis sahə məntəqələri sakinlər üçün yaxınlıqdakı ümid qapısıdır.

**Xətai RPİ 36-cı PŞ-nin 8.1 saylı inzibati sahəsinin sahə inspektoru, polis baş leytenantı Vəfadar Həsənov** 2 ildir sahə inspektorudur və artıq sakinlərin əksəriyyətinin etimadını, etibarını qazanıb. Bu, həm bizim qənaətimiz, həm də həmsöhbət olduğumuz sakinlərin fikridir.

Onunla ərazidəki məntəqədə olduqca səliqəli, necə deyərlər, xudmani xidməti otağında görüşüb söhbətləşdik. Sakinlərlə profilaktik söhbətlərə üstünlük verdiyini deyən müsahibimiz rəhbərlik tərəfindən verilən göstəriş əsasında inzibati ərazidə münaqişəli ailələr, cinayətə meyilli olan yeniyetmələr və əvvəllər məhkum olunmuş şəxslərlə mütəmadi görüşür. Hazırkı ümumi karantin rejiminə nəzarət də diqqətə saxlanılır. Çay evlərində, kafelərdə, tədris mərkəzlərində, ümumiyyətlə qapalı məkanlarda yoxlama-nəzarət tədbirləri keçirən sahə inspektoru, maarifləndirici tədbirlərin nəticə verdiyini, lakin bəzən inzibati cəza tədbirləri də görüldüyünü vurğulayır.

Onun sözlərinə görə, sərt karantinin icazə sistemi və açıq havada tibbi maskalardan istifadənin məcburi olduğu dövrlərində daha çox qayda pozuntusu aşkarlanırdı. Bu özünü tərtib olunan protokolların sayında da göstərir; karantin rejiminin ilk dövrlərindən bugünədək 2 mindən çox protokol tərtib etməli olub. Deyir ki, hazırda planşetlərlə təmin olunublar, bu da aşkar edilən hüquq pozuntuları ilə bağlı operativ inzibati tədbirlər görmələrini asanlaşdırıb.

Sahə inspektoru cinayət hadisələrinin qarşısını almaqdan ötrü rəhbəliyin göstərişi əsasında binaların giriş-çıxış hissələrində, bloklara, zəruri olan ərazilərdə müşahidə kameralarının quraşdırıldığını, baş vermiş cinayətlərin də bir hissəsinin məhz bu texniki avadanlıqlar sayəsində açıldığını dedi. Binaların kamera nəzarəti altında olduğu barədə xəbərdarlıq tabloları da asılıb. Onun sözlərinə görə, bunun olduqca böyük profilaktik əhəmiyyəti var.

Cinayətlərdən söz düşmüşkən, müsahibimiz bildirir ki, cinayətin törədilməsinə zəminin yaranmaması polis əməkdaşı üçün uğur meyarıdır, o da ərazisində buna çalışır. "Ancaq, belə bir deyim var, cəmiyyət varsa, cinayət də olacaq. Bizim əsas işimiz baş vermiş cinayətlərin üstünü açmaq, əmələ görə cəzanı labüd etməkdir. Bu inzibati ərazidə xırda talama cinayətləri, mülkiyyət əleyhinə yönəlmiş cinayətlər baş verib, ancaq bunların hamısının üstü qısa zamanda açılıb", - deyən sahə inspektoru V.Həsənov söhbətimizin sonunda bağlı cinayətin qalmadığını məmnunluq hissilə vurğuladı.

*R.Mehtiyev*




**BNMİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakinləri R.Rəhimov və əvvəllər məhkum olunmuş S.Kərimli Qaradağ rayonu ərazisində saxlanılmışlar. Şəxsi axtarış zamanı R.Rəhimovdan 9 qram, S.Kərimlidən isə 20 qram heroin aşkar edilmişdir. Davam etdirilən əməliyyat-axtarış tədbirləri ilə R.Rəhimovun idarə etdiyi "Toyota" markalı avtomobilə baxış zamanı isə oradan əlavə 11 kiloqram 950 qram heroin və 10 kiloqram 25 qram metamfetamin də aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Binəqədi RPİ 7-ci Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yanvarın 1-də Ə.Vəliyevin bank hesabından 800 manat pul oğurlamaqda şübhəli bilinən paytaxt sakini S.Ağayev müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Nərimanov RPİ 18-ci Polis Şöbəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində paytaxt sakini, əvvəllər məhkum olunmuş X.Allahverdiyev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 1 kiloqram 65 qram heroin aşkar edilərək götürülmüşdür.

# Tədbirlər nəticəsində

Daxili işlər orqanları tərəfindən qanunsuz saxlanılan silah-sursatın aşkar edilərək götürülməsi məqsədilə əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Əldə edilən məlumatlar əsasında polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində yanvarın 1-dən 4-dək respublikanın ayrı-ayrı rayonlarında vətəndaşlardan qanunsuz saxladıqları müxtəlif markalı ümumilikdə 10 ədəd ov tüfəngi götürülüb.

Aparılan profilaktiki tədbirlər nəticəsində qanunsuz saxlanılan müxtəlif markalı 7 ədəd ov tüfəngi isə könüllü olaraq polisə təhvil verilib.

Faktlar üzrə polis şöbələrində müvafiq araşdırmalar aparılır.

# Toyların monitorinqi

1-4 yanvar tarixlərində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 528 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər 511 şadlıq sarayında, 17 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 12 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi əsasən cərimə olunub;
- 131 nəfər "COVID-19" pasportu olmadığına görə şənliyə buraxılmayıb.

# Koronavirus xəstələri saxlanılıb

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət–profilaktik tədbirləri davam etdirirlər.

Yanvarın 1-dən 4-dək olan müddətdə polis əməkdaşları tərəfindən respublika ərazisində 4 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 2 nəfər barəsində Cinayət Məcəlləsinin 139-1-ci (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

*Natiq Cavadov*

## Yanvar ayının 1-dən 4-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 124 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 31 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 42, o cümlədən borclu şəxs qismində axtarışda olan 32 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 8 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 9 nəfər ölmüş, 9 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 51 fakt müəyyən edilmişdir.

POLİS
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 7435
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik